# VII-VIII SİNİFLƏRDƏ MUSİQİ FƏNNİNİN TƏDRİSİNDƏ HƏRBİ-VƏTƏNPƏRVƏRLİK MÖVUSUNDA OLAN MAHNILARIN ÖYRƏDİLMƏSİ

**Nərmin Kamilova,**
*ADPU-nun baş müəllimi*
E-mail: nermin.mubariz@mail.ru

**Rəyçilər:** *prof.* J.H. Qədimova
*dos.* A.İ. Həsənova

***Açar sözlər:*** *hərbi-vətənpərvərlik, musiqi, müəllim, tərbiyə, şagird, məktəb*
***Ключевые слова:*** *военный патриотизм, музыка, учитель, воспитание, ученик, школа*
***Key words:*** *military patriotism, music, teacher, education, student, school*

VII sinifdə hərbi-vətənpərvərlik mövzusunda O. Rəcəbovun Q. Elsevərin sözlərinə "Qeyrət marşı", E. Sabitoğlunun, B. Vahabzadənin sözlərinə "Azərbaycan", O. Rəcəbovun, S. Şıxəliyevin sözlərinə "Hərbi and", R. Şəfəqin Ə. Cavadın sözlərinə "İstiqlal bayramı", Ş. Axundovanın A. Şaiqin sözlərinə "Zəfər bizimdir", N. Mirməmmədlinin Z. Xınalının sözlərinə "Əsgər qardaşlar" kimi mahnıları oxumaq üçün məsləhət görülür. Musiqi dinlənilmək üçün Ü. Hacıbəylinin "Koroğlu" operasından "Koroğlunun aşıq mahnısı"nı, "Cəngi"ni, "Uvertüra"sını, O. Rəcəbovun "Çingiz" simfoniya-rekviyemindən VIII hissəni və s. kimi musiqi nümunələri məsləhət görülür.

Mahnı oxumaq və musiqi dinləmək mərhələlərində istifadə olunacaq musiqi nümunələri o zaman şagirdlərin xoşuna gəlir ki, onun ifa olunacaq, yaxud dinləniləcək əsərlərə marağı olsun. Bunun üçünsə şagirdlər bu musiqi nümunələrini əvvəlcə diqqətlə dinləməli, sonradan əgər əsər mahnıdırsa onu oxumalıdır. Lakin ifa ediləcək, yaxud dinləniləcək musiqi nümunələrinin hər biri haqqında müəllim maraqlı faktlara əsaslanan məlumatları şagirdlərin diqqətinə çatdıra bilməlidir.

Bakıdakı bağça – məktəb liseyinin musiqi müəllimi dərs dediyi VII$^a$ sinfində təklifimizə uyğun olaraq 28 May İstiqlal bayramına həsr olunmuş R. Şəfəqin Ə. Cavadın sözlərinə bəstələdiyi "İstiqlal bayramı" mahnısını şagirdlərə belə öyrədir.

Müəllim "İstiqlal bayramı" mahnısını əvvəlcə "Bənövşə" uşaq xorunun ifasında yazılmış diski səsləndirir. Uşaqlar müəllimin köməkliyi ilə müəyyənləşdirirlər ki, mahnının bəndini bir səsli solist, nəqarətini isə 3 səsli xor kollektivi ifa edir. Mahnının bəndi "Lya minor", nəqarət isə "do major" qammalarında səslənir. Həm nəqarət həm də bənd 4/4 xanə ölçüsünə və marş tempinə malikdir. Mahnının bəndin "Segah", nəqəratı isə "Rast" klassik Azərbaycan muğamlarının intonasiyalarına əsaslanırlar. Nəqarətin son 8 xanələri xor 3 səsli şəklindən 4 səsliyə keçir. Mahnının bəndi "mf" nüansı, nəqarəti isə "f" nüansı ilə ifa olunur.

Müşahidələr göstərir ki, mahnı nümunəsində bir sıra bilikləri mənimsəyən şagirdlər oxuyacaqları mahnıya şüurlu münasibət göstərirlər.

Bundan sonra müəllim I kupletin I bəndinin sözlərini şagirdlərə oxuyur.

Vaxtı ötkün qulların,
Birləşmiş yoxsulların,
Əməkçi oğulların
İstiqlal bayramı – May!

Sonra müəllim "İstiqlal bayramı – May!" mahnısı haqqında, onun müəllifləri haqqında, onun müəllifləri haqqında qısa məlumat verir və qeyd edir ki, xalqımız I dəfə 1918-ci ilin 28 may tarixində ilk dəfə müstəqillik qazanmış, dövlətimizin adı o vaxt Azərbaycan Demokratik Respublikası, rəhbər isə M.Ə. Rəsulzadə olmuşdur. Lakin bu respublika 28 aprel 1922-ci ildə rus imperiyası tərəfindən süquta yetirilmişdir. Məhz bu mahnı da ona həsr olunmuşdur.

dan 20-nə keçən gecə Bakıya hücum etmələri haqqında məlumat verir. Müəllim deyir ki, həmin gecə ermənilərdən və ruslardan ibarət azğın qoşun dəstələri 100-dən çox cavanlarımızı, uşaqları, qocaları, qadınları tankların altında qoyaraq, müasir avtomatlarla qətlə yetirmişlər. Sonra müəllim belə bir fikir söyləyir: "Uşaqlar, görürsünüzmü müstəqilliyimiz heç də asan başa gəlməmiş və xalqımız bu müstəqillik uğrunda böyük itkilər vermişdir. Bu gün də torpaqlarımızın 20%-i erməni faşistlərinin tapdağı altındadır. Biz sizinlə birlikdə o torpaqları azad etməliyik. Ona görə də siz ağıllı, savadlı, güclü, qorxmaz, mərd olmalısınız ki, gələcəkdə bu torpaqları azad edə biləsiniz. Bunun üçün siz müasir hərbi texnikadan da baş çıxara, savadlı olmaqla iqtisadiyyatımızın inkişafı proseslərində iştirak edə biləsiniz. Bu günkü qüvvətli Azərbaycanın sabahkı inkişafı sizin əlinizdədir. Qeyd etmək lazımdır ki, şagirdlər böyük təəssüratlarla "Şəhidlər xiyabanı"ndan məktəbə qayıtdılar. Onların simalarında kədər hissi ilə bərabər düşmənlərimizə qarşı nifrət də hiss olunurdu. Müəllim şagirdlərə təklif edir ki, sabahkı musiqi dərsinə şəhidlərlə əlaqədar şəkillər çəksinlər, yaxud şer yazsınlar və ya şifahi təqdimat hazırlasınlar. Sabahkı "Musiqi" dərsinə şagirdlərin əksəriyyəti "Şəhidlər"lə əlaqədar kimi şəkil çəkmiş, kimi şer hazırlamış, kimi isə internetdən istifad edərək yazılı, şifahi təqdimatlar hazırlayaraq sinfə gətirmişdilər. Müəllim şagirdlərin gətirdikləri şəkilləri lövhədən asaraq bu "əsərlər" haqqında fikir söyləməyi şagirdlərdən xahiş edir. Şagirdlər öz fikirlərini söylədikdən sonra müəllim onların fikirlərini ümumiləşdirir və onlara öz təşəkkürünü bildirir. Sonradan 2 şagirdin şəhidlərə həsr etdikləri şeir dinlənilir, digər şagirdlərin bu "əsərlərə" fikirləri öyrənildikdən sonra müəllim öz yekun fikrini söyləyir və şeir yazmış şagirdlərə öz təşəkkürünü bildirir. Bu yolla şagirdlərin hazırladıqları təqdimatlar da dinlənilir. Göründüyü kimi "Şəhidlər xiyabanı"na olan ekskursiyanın nəticəsi özünü şagirdlərin yaradıcılıqla məşğul olmasında göstərir. Bundan sonra bəstəkar Emin Sabitoğlunun şair Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi "Şəhidlər" mahnısı əvvəlcə xalq artisti Zeynəb Xanlarovanın ifasında səsləndirilir və müəllim mahnını frazalarla, cümlələrlə mahnının melodiyasını sözləri ilə birlikdə şagirdlərə öyrədir.

Mahnının öyrədilməsi prosesində şagirdlər çox böyük həvəslə və maraqla iştirakları açıq-aydın hiss olunurdu. Şagirdlər çox diqqətlə müəllimin oxumasına qulaq asır, sonra isə onu təkrar edirdilər. Mahnı öyrənildikdən sonra müəllim həmin mahnının melodiyasını eyni zamanda notla şagirdlərə oxutdurdu.

Kontrol VIII$^b$ sinfində müəllim "Şəhidlər" mahnısını sadəcə olaraq oxumağı öyrətdi və məlum oldu ki, eksperimental VIII$^a$ sinfində alınmış nəticələr kontrol sinifdəkindən çox fərqlənmişdir.

| Eksperimental sinif (20 şagird) | | | Kontrol sinif (20 şagird) | | |
|---|---|---|---|---|---|
| Mahnını düzgün oxuyanlar | Mahnı ilə əlaqədar şer yazanlar, şəkil çəkənlər | Mahnı ilə əlaqədar təqdimat edənlər. | Mahnını düzgün oxuyanlar | Mahnı ilə əlaqədar şer yazanlar, şəkil çəkənlər | Mahnı ilə əlaqədar təqdimat edənlər |
| 15 (75%) | 12 (60%) | 8 (40%) | 8 (40%) | 2 (10%) | 4 (20%) |

Cədvəldən göründüyü kimi eksperimental sinfin şagirdlərinin "Şəhidlər xiyabanı"nda olmaları, müəllimin şəhidlərlə əlaqədar faktlarla söhbəti, digər əyani vəsaitlərdən istifadə edilməsi şagirdlərdə düşmənlərimizə qarşı nifrət hissi yaratmaqla bərabər onların yaradıcılığına da öz müsbət təsirini göstərmişdi. VIII sinifdə müəllim Ş. Həsənova Ü. Hacıbəylinin "Koroğlu" operasından "Çənlibel xoru"-nu hərbi-vətənpərvərlik mövzusuna uyğun olaraq şagirdlərə musiqi dinləmə mərhələsi üçün səsləndirir. Bununla əlaqədar müəllim uşaqlara aşağıdakı məlumatları verir:

M – uşaqlar, Ü. Hacıbəyli özünün "Koroğlu" operasında xalqımızın yadelli işğalçılarına qarşı mübarizəsini musiqi vasitəsilə göstərmək istəmişdir. Bunun üçün Azərbaycan xalq musiqisinin imkanlarından da geniş istifadə etmişdir. Siz artıq "Cəngi" adlı Azərbaycan xalq hərbi rəqsini eşitmisiniz. Ü.Hacıbəyli "Koroğlu" operasında "Çənlibel xoru" musiqisini yazmaq üçün məhz bu rəqsdən istifadə etmişdir. Uşaqlar "Çənlibel xoru"nu Koroğlunun ətrafına yığılan müxtəlif millətlərdən olan gürcü, özbək, dağıstanlı, azərbaycanlı döyüşçülərlə birlikdə oxuyurlar. Başqa millətlərdən olan qəhrəman dö-





yüşçülər bir yerdə Çənlibelə yığışaraq xarici işğalçılara qarşı birgə vuruşurdular və Qafqazı qoruyurdular. Bu maraqlı söhbətlərdən sonra müəllim "Çənlibel xoru"nı eyniadlı "Koroğlu" film-operasından istifadə edərək dinləyir və səhnədə baş verənlərə tamaşa edirlər. Əvvəlki illərdə məktəblilər "Cəngi" musiqisilə tanış olduqlarından "Çənlibel xoru"nu da maraqla dinləyirlər və asan qavrayır, onu başa düşürlər. Bundan sonra müəllim "Çənlibel xoru" ilə "Cəngi" hərbi rəqsin oxşar və fərqli cəhətlərini şagirdlərə başa salır. Lakin müəllim şagirdlərin keçmiş biliklərinə əsaslanır ki, onlar bu prosesdə fəal iştirak etsinlər.

Bu cür əsərlərin müqayisəsi gələcəkdə şagirdlərin dinlədiyi və oxuduqları musiqi nümunələrini də müqayisəli şəkildə qavramaları üçün şərait yaradır. Yəni musiqi nümunələrinə müqayisəli münasibət şagirdlərdə ifa olunacaq mahnılara və dinləniləcək musiqi nümunələrə şüurlu münasibətin yaranmasına səbəb olur. Bu isə eyni zamanda musiqi nümunələrinin məzmununun düzgün başa düşülməsinə kömək göstərir.

**Tədqiqatın aktuallığı:** hərbi-vətənpərvərlik tərbiyəsi sahəsindəki pedaqoji-psixoloji işin səmərəliliyinin artırılması bu gün xalqımızın, dövlətimizin, eyni zamanda ümumtəhsil məktəblərimizin qarşısında duran ən vacib problemlərdən biridir.

**Tədqiqatın yeniliyi** – musiqi məşğələlərində şagirdlərin hərbi-vətənpərvərlik tərbiyəsi prosesində Azərbaycan xalq və bəstəkar musiqisinin müxtəlif janrlı və xarakterli musiqi nümunələrinin I-VIII siniflərdə istifadə üçün imkanlarını, məzmun vasitə və yollarını öyrənmək, bu işin effektliliyinin inkişafını izləmək, musiqi müəllimlərinin fəaliyyətinə kömək edə biləcək elmi-metodik tövsiyələri hazırlamaq.

**Tədqiqatın praktik əhəmiyyəti.** Aparılmış tədqiqat nəticəsində hazırlanmış yeni sistem orta ümumtəhsil məktəblərində çalışan müəllimlərə məktəblilərin musiqi vasitəsilə hərbi-vətənpərvərlik tərbiyəsinin səmərəsiinin artmasına kömək göstərir, həm də onların fəaliyyətinə düzgün istiqamət verir.

## ƏDƏBİYYAT


1. Ağayev Ə.Ə. Məktəblilərdə vətəndaşlıq borcunun tərbiyə edilməsi. Bakı: Maarif, Bakı, 1970.
2. Fətəliyev X. Kiçikyaşlı məktəblilərdə vətənpərvərlik tərbiyəsi // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1988, № 4
3. Kamilova N.M. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində hərbi-vətənpərvərlik tərbiyəsinin mahiyyəti: Metodik tövsiyə. Bakı, 2015.
4. J.H. Qədimova. Musiqi pedaqoqikası tarixi və müasirlik. Bakı, 2012.
5. Hidayətova F. Musiqi və vətəndaşlıq tərbiyəsi. Bakı: Şirvan nəşr, 2009.
6. Quliyev S.D. Məktəblilərin musiqi tərbiyəsində Azərbaycan musiqisindən istifadənin nəzəriyyəsi və tərbiyəsi: Ped. elm. dok. ... dis. avtoref. Bakı, 1996.


**Н. Камилова**

**ПУТИ И ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКИ В ВОЕННО-ПАТРИОТИЧЕСКОМ ВОСПИТАНИИ УЧАЩИХСЯ VII-VIII КЛАССОВ НА УРОКАХ МУЗЫКИ**

**РЕЗЮМЕ**

В статье рассматриваются проблемы военно-патриотического воспитания учеников начальных классов на основе азербайджанской музыки. Отмечается, что использование азербайджанской музыки в процессе обучения формирует характер, нравственные и духовные качества, чувство любви к родной земле и патриотизма, одним словом, оказывает огромное положительное влияние на внутренний мир школьников.

**N. Kamilova**

**USE OF AZERBAIJANI MUSIC IN THE MILITARY-PATRIOTIC EDUCATION OF STUDENTS AT MUSIC LESSONS**

**SUMMARY**

The article deals with the problems of military-patriotic education of primary school pupils on the basis of Azerbaijani music. It is noted that the use of Azerbaijani music in learning shapes the character, moral and spiritual qualities, feelings of love for his native land and patriotism, in a word, has a tremendous positive effect on the inner world of students.

**Redaksiyaya daxil olub: 12.05.2016**